# “O KİŞİNİ ÖMRÜM BOYU AXTARDIM...”

Zahid Xəlil: “Bu gün Azərbaycanda olan uşaqların yeddi faizi kitab oxuyur. Əvvəllər isə bu, 93 faiz idi. Mütaliə mədəniyyətdir. Əvvəllər biz avtobusda, metroda kitab oxuyurduq. İndi bu vərdiş yoxdur. Bu mədəniyyəti qoruyub saxlamaq lazımdır”.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az





Fotolar: Rüfət Mikayılov - Global Photostock

“Biz çox mürəkkəb dövrdə yaşayırıq. Dünya dövlətləri ilə müqayisədə o qədər böyük dövlət deyilik, amma nəhənglər içərisində sayılırıq. Gənclərimiz savadlı olmalıdırlar ki, ölkənin quruculuğuna kömək etsinlər, inkişafına təkan versinlər. Yaxşı mütəxəssis olmaq elə vətənpərvərlikdir”. Uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, filologiya elmləri doktoru, professor Zahid Xəlil “Məktəbdə” qonaq olarkən şagirdlərə dəyərli tövsiyələrini verdi.

Bakı Şəhəri üzrə Təhsil İdarəsi ilə “Kaspi” qəzetinin birgə layihəsi bu dəfə paytaxtdakı 16 nömrəli Texniki-Humanitar Liseyin şagird və müəllimlərini bir araya topladı.

## “ÖZÜNÜZDƏN BÖYÜKLƏRİN SÖHBƏTLƏRİNƏ QULAQ ASIN”

“İnsan ömrü boyu öyrənmək istəyir. Yaş etibarı ilə böyük olan, müəyyən həyat və təhsil yolu keçən insanlarla söhbət etmək çox faydalıdır”, - deyə qonaq öz həyat yolundan danışdı: “Mən orta məktəbi qızıl medalla bitirmişəm. Amma tarix fənnini çox pis bilirdim. Bakı Dövlət Universitetində imtahan verəndə bütün imtahanlardan “5” aldım. Tarix imtahanına az qalmış Yevlaxa qayıtdım. Qatarda İkinci Dünya müharibəsinin iştirakçısı olan bir kişi ilə tanış oldum. O müharibədə iştirakından, sovet ordusunun necə qalib gəlməsindən xeyli danışdı. İmtahana gələndə “gedirəm kəsilməyə, heç nə bilmirəm”, - deyə evdə bildirdim. İmtahanda bilet çəkdim. Sual “Müharibədə qələbəmizin səbəbləri” mövzusu idi. Mən həmin kişinin danışdıqlarını imtahan götürən müəllimə danışdım. Xoşuna gəldi və mənə “5” yazdı. Bununla da instituta qəbul oldum. Sonra mən o kişini ömrüm boyu axtardım, ona təzim etmək istəyirdim. Çünki o, həyatımda böyük rol oynamışdı. Ona görə deyirəm ki, özünüzdən böyüklərin söhbətlərinə qulaq asın”.

Görkəmli pedaqoq ölkəmizdə təhsilin inkişafına da toxundu: “Mən Pedaqoji Universitetdə müəllim kimi fəaliyyətə başlamışam, həyatımın yarım əsrdən artıq bir dövrünü pedaqoji fəaliyyətə həsr etmişəm. Baş müəllim, dosent, kafedra müdiri, dekan işləmişəm. 100-dən çox kitab yazmışam. Mən təhsilimizin inkişafını Elm və Təhsil Nazirliyinin yaxşı fəaliyyətində görürəm. Sovet dövründə nə deyirdilər, onu da edirdik, amma indi müstəqilik, azadıq. Axtarışlar da çoxdur. Elm və Təhsil Nazirliyi ”mən öz xalqımın övladlarını hara aparıram” deyə həmişə düşünməlidir. Bu sahədə yaxşı islahatlar gedir. İndi dünya dəyişib, uşaqlar da inkişaf edir”.

## YAZIÇI OLMAĞIN ÇƏTİNLİYİ

Z.Xəlil uşaq yazıçısı olmağın çətinliyindən söhbət açdı: “Ümumiyyətlə, yazıçı olmaq çətindir. Uşaq ədəbiyyatı deyəndə bəzilərinə çox asan gəlir. Böyük rus tənqidçisi Belinski deyirdi ki, böyüklər üçün yazmağa istedad, uşaqlar üçün yazmağa isə istedad və pedaqoqluq lazımdır. Mən ilk şeirimi orta məktəbdə yazmışdım. Onları çap olunması üçün “Pioner” qəzetinə göndərirdim. Həmişə də cavab yazırdılar ki, bədii cəhətdən zəifdir. 10-cu sinifdə oxuyarkən “Vətənim” şeirini yazdım və rayon qəzetində çap etdilər. Bu, mənim çap olunan ilk şeirim idi. Böyüdükcə Vətənin nə demək olduğunu dərk elədim. Ciddi ədəbiyyatda ilk şeirimi - “Çəmən” şeirini birinci kursda oxuyarkən yazmışam. Böyüklər üçün də yazırdım. Amma üstünlüyü uşaq ədəbiyyatına verdim. Taleyim elə gətirdi ki mənim uşaq ədəbiyyatım bütün SSRİ-yə yayıldı”. Z.Xəlil qeyd elədi ki, uşaqlarla ünsiyyətdə olmadan uşaq ədəbiyyatı nümunələrini yaratmaq olmaz: “Ömrüm boyu uşaqlarla ünsiyyətdə olmuşam. Onları duymadan yazmaq olmaz. Həmişə nəvələrimlə futbol oynayıram. İçimdəki azadlığı çölə çıxarmışam, azadam. Mən azad olmadan əsərlərimi yaza bilməzdim. Hazırda çox sayda uşaq kitabı nəşr olunur. Amma bu kitabları uşaqlara vermək olmaz”.

> *“Moskvada kitabım iki milyon tirajla çap olundu. Hesablanmışdı ki, bu rəqəm bir vaqon kağız deməkdir. Bunun üçün o zamankı SSRİ Nazirlər Sovetinin rəhbəri Nikolay Rıjkova xüsusi məktub yazıb icazə istədilər. O, “bu, uşaqlar üçün lazımdır”, - deyə icazə verdi.”*

## UŞAQ ƏDƏBİYYATI SAHƏSİNDƏKİ PROBLEMLƏR

Yazıçı uşaq ədəbiyyatı sahəsindəki problemlərə də toxundu: “İlk növbədə uşaq ədəbiyyatı ilə bağlı əsərlərin satışı təşkil olunmalıdır. Düzdür, mənim kitablarım satılır, amma bu, əvvəlki kimi deyil. Moskvada kitabım iki milyon tirajla çap olundu. Hesablanmışdı ki, bu rəqəm bir vaqon kağız deməkdir. Bunun üçün o zamankı SSRİ Nazirlər Sovetinin rəhbəri Nikolay Rıjkova xüsusi məktub yazıb icazə istədilər. O, “bu, uşaqlar üçün lazımdır”, - deyə icazə verdi. 1969-cu ildə SSRİ Nazirlər Soveti və SovİKP MK uşaq ədəbiyyatı haqda qərar çıxarmışdı. Kitabın pulunun 90 faizini dövlət verməli idi. Başa düşürəm ki, indi dövlətin qayğışı çoxdur. Amma imkanlı təşkilatlar var, onlar bu işə dəstək ola bilərlər”.

Z.Xəlil mütaliənin uşaqların inkişafında mühüm rol oynadığını qeyd etdi və bu istiqamətdə tövsiyələrini verdi: “Bu gün Azərbaycanda olan uşaqların yeddi faizi kitab oxuyur. Əvvəllər isə bu, 93 faiz idi. Mütaliə mədəniyyətdir. Əvvəllər biz avtobusda, metroda kitab oxuyurduq. İndi bu vərdiş yoxdur. Bu mədəniyyəti qoruyub saxlamaq lazımdır. Siz dünya ədəbiyyatını mütaliə edin, Mark Tvenin, Andersonun, öz yazıçılarımızın əsərlərini oxuyun. Bu, sizin yaxşı düşünməyinizə, fikirlərinizi mükəmməl ifadə etməyinizə kömək edəcək, məlumatlı olacaqsınız, zövqünüz formalaşacaq”.

Yazıçı gənclərin vətənpərvər ruhda böyüməsi, ölkəyə layiqli vətəndaş, yaxşı təhsilli mütəxəssis kimi yetişməsi üçün də tövsiyələrini verdi: “Siz yaxşı bir mütəxəssis olsanız, bu, vətənpərvərlikdir. Türkiyədə Səlcuk Bayraktar pilotsuz uçuş aparatları hazırlayıb. Bu, vətənpərvərlikdir. Siz yaxşı oxuyub, peşəkar mütəxəssis kimi yetişsəniz, Vətəninizə fayda verəcəksiniz. Mənim Azərbaycan məktəbinin yetişdirdiyi gəncliyə böyük ümidim var”.

